Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
"Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği"

# Faşizm üzərində qələbənin tərbiyəvi mahiyyəti

**"Ya bəşəriyyət müharibələrlə üzü-lüşməlidir, ya da müharibələr bəşəriyyətlə üzülüşəcək"**
**Con Kennedi**

Bəşəriyyətin siyasi tarixində mühüm yer tutan, öz miqyasına və əhəmiyyətinə görə böyük hərbi əməliyyatlarla dolu olan (təxminən 1320 döyüş) 1941-1945-ci illər müharibəsi XX əsrdə dünyanın ictimai-siyasi inkişafına ciddi təsir göstərməklə, ekoloji, demoqrafik, psixoloji, urbanoloji və başqa qlobal problemlərin yaranmasına səbəb olmuşdur.

Məşhur İsveç alimi Jan Jak Bebelin hesablamalarına görə, son 6 min il ərzində dünyada 14513 müharibə baş vermiş və bu müharibələrdə 3 milyard 640 milyon insan tələf olmuşdur ki, bunun da 60 milyonu 1941-1945-ci illərin payına düşmüş, habelə müharibə 316 milyard dollarlıq maddi-mənəvi zərər hesabına başa çatmışdır.

1941-1945-ci illər müharibəsində faşist Almaniyası üzərində qələbənin əldə edilməsində Azərbaycan xalqının müstəsna xidmətləri danılmazdır.

Azərbaycanın ümummilli lideri Heydər Əliyev demişdir: "Azərbaycan xalqı 1941-1945-ci illər müharibəsində həm döyüş meydanlarında, həm də arxa cəbhədə əsl şücaət və əzmkarlıq nümunələri göstərmişdir. Müharibə başlanandan keçən qısa müddət ərzində Azərbaycan Respublikası ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edilmişdir. 1941-1945-ci illərdə respublikanın 681 min oğlan və qızları cəbhəyə getmişdir. Xalqımızın müharibədə verdiyi qurbanlar və fədakar əməyi onu alman faşizm üzərində qələbə çalan xalqların ön sıralarında yerləşdirir... Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur".

Məhz Qələbənin 70 illiyinin qeyd edilməsi ərəfəsində görülən mühüm işlərdən biri də müharibədə Azərbaycan döyüşçülərinin qəhrəmanlıqlarının və qələbənin tarixi əhəmiyyətini gənc nəslə çatdırılmasıdır.

İndiki dövrdə, düşmənin qapı ağzında olduğunu nəzərə alaraq, gəncləri inqilabi döyüş ənənələri ruhunda tərbiyələndirməyin əhəmiyyəti böyükdür.

Xalqımızın böyük filosofu və ədibi M.F.Axundova görə əsl vətənpərvər o kimsədir ki, vətənin və millətin mənfəəti və azadiyyəsi üçün cəfakeş ola.

Hazırkı zamanda müstəqil, suveren dövlətimizi qoruyub saxlamaq və inkişaf etdirmək, onun dünya dövlətləri arasında özünə layiq yerini tutmasına nail olmaq üçün bugünkü gəncləri həm də qəhrəmanlıq ənənələri əsasında tərbiyə etmək vacibdir. Xüsusilə bu səpgidə iş apararkən Böyük Vətən Müharibəsi tarixində yerli mənbələrə istinad etmək daha əlverişlidir. Məlumdur ki, Faşist Almaniyası Qafqazın zəngin sərvətinə yiyələnmək məqsədilə qüvvələrinin bir hissəsini bura yönəltmişdi. Hələ müharibənin əvvəlində Azərbaycan qızları tərəfindən ana və rəfiqələrə ünvanlandırılan müraciətdə deyilirdi: "Düşmənlər bizim füsunkar və əzəmətli Qafqazımıza qəsd edirlər. Siz, ey Qafqaz və Zaqafqaziya səması altında yaşayan dağ qadınları, kazak, çeçen, kabardin, balkar, azərbaycanlılar. Düşmənin quldur dəstəsinə qarşı vuruşan ərlərinizə və qardaşlarınıza kömək edin. Düşmənə ölüm. Bizim iti sınaqlarda bərkimiş silahımız düşməni labüd məhvə uğradacaqdır". Bütün bunların gənclərə çatdırılması onların öz vətənini sevməyə, öz xalqının həyatı ilə yaşamağa sövq edir.

Müharibənin qanlı-qadalı illəri haqqında gənclərdə təəssürat yaratmaq, müharibədə həlak olmuş, mərd oğul və qızlarımızın həyat yolu ilə onları tanış etmək, müharibə veteranları ilə görüşlər təşkil etmək, həm böyüyən nəsildə vətənpərvərlik, vətəndaşlıq ruhu tərbiyə edir, həm də vətənimizin tarixi keçmişini daha dərindən öyrənməyə imkan verir.

Tarixi faktlar sübut edir ki, bu müharibəyə 600 mindən çox azərbaycanlı səfərbər edilmiş, onlardan 60 faizdən çoxu cəbhədən qayıtmamışdı. Faşizmə qarşı müharibədə Ali Baş komandan Stalinin 1941-ci il 18 oktyabr tarixli əmrinə əsasən, azərbaycanlılardan ibarət 77-ci atıcı diviziyası, 223-cü milli atıcı, 396-cı milli atıcı, 402-ci və 416-cı milli atıcı diviziyaları yaradıldı və onlar Zaqafqaziya hərbi dairəsində yerləşdirilmiş 44-cü, 45-ci və 46-cı orduların tərkibinə daxil edildilər.

416-cı Taqanroq milli atıcı diviziyasının tərkibinin, xüsusilə də komanda heyətinin 92 faizi azərbaycanlılardan ibarət idi. 1942-ci ilin payızında diviziya Şimali Qafqazda 44-cü ordu, az sonra 58-ci ordu tərkibində Mozdok istiqamətində döyüşlərə başladı. Taqanroq şəhərinin azad edilməsində fəal iştirakına görə "Taqanroq diviziyası" adına layiq görüldü. Azərbaycan hökumətinin ardıcıl köməyi nəticəsində diviziya müharibənin sonuna qədər öz milli tərkibini saxlaya bildi. Diviziyanın 1368-ci atıcı alayı "Qırmızı Bayraq" ordeni, 1054-cü topçu alayı "Suvarov" ordeni, 444-cü əlahiddə topçu divizionu "Boqdan Xmelnitski" ordeni, 348-ci əlahiddə sanitar batalyonu "Qırmızı Bayraq" ordeni ilə təltif edilmişdi. Diviziya düşmənin 24 minə yaxın əsgər və zabitini məhv etmiş, 5474 nəfər əsir götürmüş, onların istifadəsində olan çoxlu döyüş texnikasını işlək vəziyyətdə qənimət kimi ələ keçirmişdir. Diviziyanın 14396 nəfər əsgər və komandiri SSRİ-nin orden və medalları ilə təltif edilmişdi. Komandir və əsgərlərin bir çoxuna xarici ölkələrin orden və medalları verilmişdi. Böyük Vətən müharibəsinin ən böyük dir. Moskva ətrafında Smolenski uğrunda gedən döyüşlərdə şəmkirli İsrafil Məmmədov azərbaycanlı döyüşçülər içərisində ilk dəfə Sovet İttifaqı Qəhrəmanı adını almışdı. Mərhum tarixçimiz, akademik Ziya Bünyadov düşmən alayına qarşı apardığı qeyri-bərabər döyüşdə özü 70 nəfər faşist döyüşçüsünü və zabitini məhv etmiş və bu şücaətinə görə Sovet İttifaqı Qəhrəmanı adını almışdır.

Bundan başqa, azərbaycanlı döyüşçülər Cənubi-Şərqi Avropa ölkələrində aparılan döyüşlərdə də fəal iştirak etməklə, müqavimət və partizan hərəkatlarında, faşistlərin işğal etdiyi Fransada, İtaliyada, Polşada, Çexoslovakiyada, Yuqoslaviyada və Avropanın digər ölkələrində misilsiz igidliklər göstərmiş və bu döyüşlərdə onlardan 30 nəfəri Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Təkcə Fransanın cənubunda gedən partizan hərəkatında 1000 nəfərdən çox, Yuqoslaviyadakı partizan hərəkatında 600 nəfərdən çox azərbaycanlı vuruşmuşdu.

İ.Əliyev, B.Dadaşov, H.Qiyasbəyli, Ə.Hacıbəyov, Ə.Cəbrayılov, M.Hüseynzadə, M.Seyidov, Ş.Məcidov, Ə.Ağayev, faşist B.Mussolininin həbs edilməsində igidlik göstərmiş V.Hüseynov, H.Mustafayevin və yüzlərlə digər azərbaycanlı oğul və qızın əfsanəvi igidlikləri bu gün də Qərbdə dildən-dilə gəzir.

Şəkili Əhmədiyyə Cəbrayılov Fransada "Armed Mişel" adı ilə məşhur idi. Paris şəhərinin komendantı, müharibədən sonra Fransanın prezidentliyinə qədər yüksəlmiş Şarl de Qoll (1959-1969) onun başçılıq etdiyi partizan dəstəsinin üzvü olmuşdur. Əhmədiyyə Fransanın 5 yüksək ordeni ilə təltif olunmuş və Fransanın "Milli Qəhrəmanı" adına layiq görülməklə şəxsi igidliyinə görə paradda əsgərə generaldan irəlidə getmək kimi şərəfli hüquq verən yüksək mükafat - "Hərbi medal" la təltif olunmuşdu.



*sərkərdəsi, 4 dəfə Sovet İttifaqı Qəhrəmanı,* Sovet İttifaqı Marşalı Georgi Jukov 416-cı diviziyanın Berlində keçirdiyi döyüş əməliyyatlarına yüksək qiymət vermişdir.

Müharibə illərində elə bir döyüş əməliyyatı yoxdur ki, orada azərbaycanlıların da nümayəndələri olmasın. Azərbaycanlı döyüşçülər Leninqradın, Odessanın, Sevastopolun müdafiəsində, Moskva və Stalinqrad döyüşlərində igidliklər göstərmişlər. Bu döyüşlərdə general H.Aslanovun, atıcı İ.İsmayılovun, H.Mustafayevin, Z.Seyidməmmədovanın, Z.Qəniyevanın və yüzlərlə başqalarının igidlikləri müharibənin tarixi yaddaşına daxil olmuşdur. Sovet-alman cəbhəsində 1418 gün davam edən müharibədə 11603 nəfər Sovet İttifaqı Qəhrəmanı fəxri adını almışdır ki, onlardan da 120 nəfəri Azərbaycan vətəndaşıdır. Həmin qəhrəmanlardan isə 43-nün azərbaycanlı olması və 120 nəfər İki dəfə Sovet İttifaqı Qəhrəmanı fəxri adları içərisində bu gün Sovet qoşunlarının tank-briqada komandiri, Moskvada "İbadət dağı"nda qələbənin 50 illiyi münasibətilə yaradılmış möhtəşəm ansamblda 17 nəfər tankçının sırasında general-mayor Həzi Aslanovun da adının qızıl hərflərlə yazılması bizim üçün fəxrdir. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə, 176 min nəfər SSRİ orden və medalları ilə təltif edilmiş-

1943-cü ildə faşistlərin Almaniyanın Stranse əsir düşərgəsindən İtaliyaya, Triyestə və Yuqoslaviyaya köçürdüyü sovet hərbi əsirləri içərisində xeyli azərbaycanlı var idi. Onlar gizli antifaşist təşkilatı yaratmışdılar. Təşkilatın rəhbərliyinə Mehdi Hüseynzadə (Mixaylo), Mirdamət Seyidov, Cavad Həkimi və başqaları daxil olmuşdular. Onların çoxu 1944-cü ilin fevralında əsirlikdən qaçaraq partizanlara qoşulmuş, İ.Qradnik adına İtalyan-Yuqoslav partizan diviziyası tərkibində əlahiddə rota təşkil etmişdilər. Mehdi Hüseynzadə Yuqoslaviya Xalq Azadlıq Ordusunun 11-ci korpusu qərargahı yanında Haribaldi adına xüsusi kəşfiyyat-təxribat qrupuna rəhbərlik etmiş, fövqəladə qəhrəmanlıqlar göstərərək 1000 nəfərdən çox faşist zabitini məhv etmiş və 700 nəfər əsiri azad etmişdir. O, faşistlərlə qeyri-bərabər döyüşdə həlak olmuş və ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adına (1957) layiq görülmüşdür.

Xatırlasaq ki, Hitler müharibə dövründə iki böyük ekspedisiya yaradaraq Azərbaycana göndərmiş, xalqımızın mənşəyi, genezisi ilə maraqlanmışdı. Başqa bir məqam, Hitlerin sərsəm dünya ağalığı iddiasını puça çıxaran Bakı nefti olmayıbmı? Təkcə Akademik Yusif Məmmədəliyev başda olmaqla kimyaçı alimlər Bakı neftindən 100 növ neft-kimya məhsulları, o cümlədən 38 növ sürtgü yağı, 9 adda təyyarə benzini və 8 növ dizel yağı istehsal etmişdilər. Təsadüfi deyildir ki, Ümummilli liderimiz Heydər Əliyev 2003-cü ilin 25 fevralında Vaşinqtonda "Şərq-Qərb enerji dəhlizi reallıqdır" mövzusunda beynəlxalq konfransdakı nitqində demişdir: "Çoxları indi də deyir ki, əgər Azərbaycan nefti olmasaydı, İkinci Dünya müharibəsində SSRİ-nin İngiltərə-Amerika koalisiyası ilə birlikdə alman faşizminə qalib gəlməsi mümkün olmazdı".

Bütün bunlar xalqımızın 27 ilə yaxın düçar olduğu, bədnam, nankor qonşularımız tərəfindən başımıza gətirilən faciə və fəlakətlərin aradan qaldırılması üçün örnək olmalı, gənclərimizdə mətinlik, torpağa bağlılıq kimi keyfiyyətləri formalaşdırmalı, onların mənəvi əqidəsinə yeni məzmun verməlidir. Kişilik, məğlubedilməzlik, dəyanət gənclərin maddi-mənəvi tələbatına çevrilməlidir. Çünki, bu gün gənc nəsildə doğma yurda, ana Vətənə məhəbbət oyatmaq, Vətənin düşmənlərinə qarşı barışmaz, torpağın, millətin azadlığı və istiqlaliyyəti uğrunda mübariz olmaq kimi əxlaqi-sərvətlərin aşılanması daha zəruridir.

Bu bir həqiqətdir ki, xalqımızın uzun əsrlər boyu müharibələrdə göstərdiyi qəhrəmanlıq və rəşadətlər salnaməsinə 1941-1945-ci illər müharibəsi də qızıl hərflərlə yazılmışdır.

Əlbəttə, bizim şərəfli və zəngin tariximiz var. Heç vaxt kiminsə torpağında, var-dövlətində gözümüz olmayıb. Həmişə qonşularımıza humanist yanaşmış, onlara öz ərazilərimizdə yaşamaq üçün hər cür şərait yaratmışıq. Amma bütün bunlar o demək deyildir ki, biz daha kiməsə halal torpaqlarımızdan pay verə bilərik. Qan tökülməsini istəmirik, amma torpaq uğrunda döyüşmək də, vuruşmaq da amalımızdır. Bu gün Azərbaycanda Milli Qəhrəman adını daşıyan 210-dan artıq igidimizin döyüş yolu və şücaəti bir daha təsdiq edir ki, həyat üçün doğulanların vətən uğrunda ölməsi, həqiqətən, şərəfdir!

Dövlətçilikdə varislik dedikdə yalnız siyasi-iqtisadi kurs, idarəetmənin ümumi prinsipləri nəzərdə tutulmur. Bəşəri dəyərlərin, mənəvi itkilərin varisliyinin təmin edilməsi də dövlətin və millətin təşəkkül və inkişafında mühüm rol oynayır, cəmiyyətin ovqatını təzələyir, insanların inam və ümidinə çıraq tutur. Bu mənada ölkə Prezidenti cənab İlham Əliyev bütün sahələrdə olduğu kimi, Azərbaycan xalqının qəhrəman keçmişi, onun tapındığı dəyərlər kompleksi ilə bağlı bütün məsələlərə xüsusi diqqət yetirərək demişdir: "Böyük Qələbənin bayram edildiyi ildə biz ancaq tarixdən bildiyimiz o günlərin qəhrəmanlığını bir daha xatırlayırıq. Hər bir insan silaha sarılaraq öz ölkəsini müdafiə etmiş, dünyada və Avropada azadlığı qorumuş adamlara dərin ehtiramını bildirməlidir".

Heç şübhə yoxdur ki, ermənilər tərəfindən işğal olunmuş 20 faiz torpaqlarımızın və 1 milyondan çox qaçqın və köçkünümüzün taleyi də xalqımızın igid oğlan və qızlarının şücaəti və igidliyi nəticəsində həll ediləcək və hərb tariximizə yeni səhifələr yazılacaqdır.

**Fizuli İbrahimzadə**

**Fövqəladə Hallar Nazirliyi Akademiyasının humanitar fənlər kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***